

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

25 sentyabr 2025-ci il, cümə axşamı
№ 172 (6999)
Qiymәti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# Biz dinc dünyada yaşayacağıq!



**İlham Əliyev: Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu!**

**Donald Tramp: Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız**



Bax səh. 2

## Qafqazdan beynəlxalq aləmə: Azərbaycanın liderlik yolu...

Bax səh. 3



**"Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu öz işinə başlayıb**



Bax səh. 4

## Bakının sülh təşəbbüsü BMT-nin diqqət mərkəzində - Baş Assambleyadakı müzakirələr

Bax səh. 5

### Geniş coğrafiyanı birləşdirən strateji layihə - Orta Dəhliz

Bax səh. 3

### Səssiz düşmən...

Mina terroru davam edir

Bax səh. 5

### 10 milyard dollardan çox investisiya layihələri

Bax səh. 6

### Yeni sosial yığım mənbəyi - özəl pensiya fondları

Bax səh. 6



### Ukrayna ərazilərini geri qaytaracaq?

Bax səh. 7



### ABŞ Argentinada hərbi baza quracaq

Bax səh. 7

# Biz dinc dünyada yaşayacağıq!







## İlham Əliyev: Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu!

Sentyabrın 23-də Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Rəsmi qəbulda çıxış edən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dedi: Ermənistan və Azərbaycan. Mən Sizə təşəkkür etmək istəyirəm, dostum. Oradakı münaqişənin iyirmi iki il davam etdiyini dediniz, düzdür, 22 il? Bu 22 il ərzində Siz müharibə şəraitində idiniz.

Prezident İlham Əliyev: Daha da çox.

Prezident Donald Tramp: Bundan da çox?

Prezident İlham Əliyev: 30 ildən artıq. Siz möcüzə yaratdınız, cənab Prezident. Təşəkkür edirəm.

Prezident Donald Tramp: Mən bir neçə dost qazandım. Təşəkkür edirəm. Çox gözəl oldu. Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər.

Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox. Bütün bu illər ərzində buna cəsarət lazım idi. Bu, həqiqətən Sizin və yeni dostunuzun sayəsindədir. Həqiqətən yaxşıdır. Necə gedir işlər? Yaxşıdır? Atışma yoxdur? Heç nə yoxdur?

Prezident İlham Əliyev: Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu.

## Donald Tramp: Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız

Prezident Donald Tramp: Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

Mən bu zalda olan bəzileriniz ilə görüşmüşəm, bir çoxunuzu yaxşı tanıyıram. Siz möhtəşəm insanlarsınız. Siz ən yüksək səviyyəli liderlərsiniz. Sizin gördüyünüz işlər möhtəşəmdir. Düşünün, ölkələrinizin milyonlarla əhalisi var və siz bu ölkələrə uğurla rəhbərlik edirsiniz, dünya miqyasında liderlik edirsiniz. Məhz buna görə də buradasınız. Sadəcə demək istəyirəm ki, sizinlə bir yerdə olmaq mənim üçün şərəfdir. Sizinlə əl sıxmağı səbirsizliklə gözləyirəm. Birlikdə bu işlərdən zövq alacağıq. Biz dinc dünyada yaşayacağıq.

Birinci xanım Melaniya Tramp: Mən bu gün günorta "Gələcəyi birlikdə qurmaq" adlı möhtəşəm təşəbbüsə ev sahibliyi etdim. Ümid edirəm ki, bütün birinci xanımlar və həyat yoldaşları gələn il birinci rübdə Ağ Evdə mənə qoşulacaqlar və dünyadakı uşaqlar üçün uğur qazanacağıq. Təşəkkür edirəm.

**Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi, Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza, Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov, "Ares Management" qlobal investisiya şirkətinin həmtəsisçisi və baş icraçı direktoru Maykl Aruqeti ilə görüşüb.**

**Görüşlərin icmalı qəzetimizin növbəti sayında dərc ediləcək.**

# Qafqazdan beynəlxalq aləmə: Azərbaycanın liderlik yolu...

## Prezident İlham Əliyevlə görüş təşəbbüsləri: Qlobal siyasətdə yeni prioritetlər müəyyənləşir

Son illərdə Azərbaycanın regional və qlobal miqyasda artan nüfuzu, yerləşdiyi regionda sabitləşdirici faktora çevrilməsi və həyata keçirdiyi uğurlu xarici siyasət kursu beynəlxalq diqqəti ölkəmizin üzərinə daha da cəlb edib. Əgər bir zamanlar Azərbaycan postsovet məkanının dövlətlərindən biri kimi görünürdüsə, bu gün artıq Cənubi Qafqazın əsas siyasi və iqtisadi lideri, Avrasiya məkanında söz sahibi olan mühüm bir güc mərkəzi kimi qəbul edilir. Azərbaycanın təşəbbüskarı və ev sahibi olduğu beynəlxalq tədbirlər, qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələr, sülh və əməkdaşlıq naminə atdığı qətiyyətli addımlar dünya dövlətləri tərəfindən yüksək qiymətləndirilir.

Bunun ən son və bariz nümunələrindən biri də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində özünü göstərdi. Sessiya zamanı aparıcı beynəlxalq təşkilatların rəhbərlərinin, eləcə də müxtəlif ölkələrin dövlət və hökumət başçılarının Prezident İlham Əliyevlə görüşmək üçün təşəbbüs göstərməsi Azərbaycanın artan qlobal nüfuzunun təsdiqidir.











### Avropa ölkələri və beynəlxalq institutlar Azərbaycanla əməkdaşlıqda maraqlıdır

Bir çox ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların, iqtisadi korporasiyaların rəhbərləri Prezident İlham Əliyevlə görüşmək üçün təşəbbüs göstərir, can atır. Sentyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşüb. Finlandiya Prezidenti Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və Vaşinqtonda əldə edilmiş tarixi nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Aleksandr Stubb Finlandiyanın regionda sülhü daim dəstəklədiyini qeyd edib.

Dövlətimizin başçısı məhz Finlandiyanın ATƏT-ə sədrliyi dövründə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə əlaqədar qərarın qəbul edildiyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın sülh dövrünə qədəm qoyduqlarını qeyd edib. Söhbət zamanı sülh gündəliyinin irəli aparılması üçün birgə səylərin vacibliyi vurğulandı. Görüşdə Azərbaycanla Finlandiya arasında ikitərəfli, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub, Azərbaycan-Avropa İttifaqı əlaqələrinə dair fikir mübadiləsi aparılıb.

Həmin gün Prezident İlham Əliyev Avropa Şurasının Baş katibi Alen Berse ilə də görüş keçirib. AŞ Baş katibi Ermənistanla Azərbaycan arasında əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Söhbət zamanı Vaşinqton görüşündə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasına, iki ölkə arasında münasibətlərin normallaşmasına dair sazişin paraflanmasına və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Vaşinqton Bəyannaməsinin əhəmiyyətinə toxunulub. Bütün bunların regionda davamlı sülhün təmin olunması baxımından vacibliyi qeyd edilib. Alen Berse Avropa Şurasının regional sülh gündəliyini dəstəklədiyini vurğulayıb. Baş katib COP29 dövründə Azərbaycana səfərini, həmin vaxt və digər beynəlxalq tədbirlər çərçivəsində dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırlayıb. Görüşdə Azərbaycanla Avropa Şurası arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyevin sentyabrın 23-də Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olub. Baş nazir Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Vaşinqtonda keçirilmiş tarixi görüş münasibətilə təbriklərini çatdırıb, əldə olunmuş nailiyyətlərin regional sülhün gücləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev Vaşinqtonda keçirilmiş görüşün Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxunub və bu prosesdə ABŞ Prezidenti Donald Trampın mühüm rolunu qeyd edib. Vaşinqton görüşündə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz nəqliyyat dəhlizinin yaradılmasına dair əldə olunmuş razılaşmanın regional bağlantılar baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Söhbət zamanı Azərbaycanla Yunanıstan arasında enerji sahəsində uğurlu əməkdaşlıq qeyd edilib, iqtisadiyyat, ticarət və turizm sahələrində əlaqələrin genişləndirilməsinin, Hökumətlərarası Komissiyanın fəaliyyətinin canlandırılmasının vacibliyinə toxunulub.

### Qlobal Cənubun ölkəmizə diqqəti artır

Azərbaycan Prezidentinin BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında Keniya Respublikasının Prezidenti Uilyam Samoei Ruto ilə də görüşü olub. Söhbət zamanı dövlət başçıları Azərbaycanla Keniya arasında münasibətlərin inkişafından məmnunluqlarını ifadə ediblər. Azərbaycanın Keniyada səfirliyinin açılmasının əlaqələrimizin inkişafına təkan verdiyi qeyd olunub. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb, əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün hökumət rəsmilərindən ibarət nümayəndə heyətlərinin səfərlərinin təşkili məsələsinə toxunulub. Bu xüsusda enerji, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb. Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə də görüşüb. İraq Prezidenti dövlətimizin başçısına Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin irəli aparılması, xüsusilə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasına dair sazişin paraflanması münasibətilə təbriklərini çatdırıb.

Prezident İlham Əliyev Azərbaycanın bundan sonra da sülh gündəliyinin irəli aparılması üçün səylərini davam etdirəcəyini deyib. Dövlətimizin başçısı Vaşinqtonda nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu vurğulayıb. Söhbət zamanı İraq Prezidentinin Azərbaycana səfərləri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər məmnunluqla xatırlanıb. Görüşdə Azərbaycanla İraq arasında münasibətlərin inkişaf etdirilməsində Hökumətlərarası Komissiyanın roluna toxunulub, enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Həmçinin ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

### Azərbaycan lideri ilə görüş təşəbbüsləri təsadüfi deyil...

Göründüyü kimi, Azərbaycanın beynəlxalq nüfuzu genişmiqyaslıdır - aparılan siyasi xətt həm Avropa, həm Asiya, həm Afrika kontingentlərində yerləşən dövlətlər, həm də beynəlxalq təsisatlar üçün böyük maraq kəsb edir. Azərbaycanın qlobal diqqət mərkəzinə çevrilməsinin başlıca səbəblərindən biri ölkəmizin bərabərhüquqlu və praqmatik xarici siyasətidir. Rəsmi Bakı heç vaxt yalnız bir qütbə yönəlməyib, əksinə, həm Qərb, həm də Şərqlə, həm İslam dünyası, həm də Avropa ilə əməkdaşlıqda körpü rolunu oynayıb. Bu yanaşma Azərbaycanın həm regionda, həm də beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsinə şərait yaradıb.

Azərbaycanın təşəbbüsləri ilə reallaşan beynəlxalq nəqliyyat dəhlizləri - Orta Dəhliz, Şimal-Cənub və Şərq-Qərb layihələri - ölkəmizi mühüm tranzit və logistika mərkəzinə çevirib. Bu isə yalnız iqtisadi maraqları deyil, eyni zamanda, qlobal əməkdaşlıq üçün strateji əhəmiyyəti də artırır.

Azərbaycanın qlobal diqqəti cəlb etməsinin digər vacib səbəbi də sülh gündəliyidir. 2020-ci ildəki Vətən müharibəsindən sonra rəsmi Bakı bölgədə dayanıqlı sülhün təmin olunması üçün ardıcıl addımlar atır. Ermənistanla aparılan danışıqlar, beynəlxalq vasitəçilik təşəbbüslərində Azərbaycanın konstruktiv mövqeyi ölkəmizi regionda sülhün əsas təminatçısı kimi təqdim edir.

Qeyd edildiyi kimi, BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində Prezident İlham Əliyevlə görüşmək üçün irəli sürülən təşəbbüslərin də əsasında məhz bu fəaliyyət dayanır. Dünya liderləri Azərbaycanın artan qlobal rolunu nəzərə alaraq, onunla əməkdaşlıq imkanlarını müzakirə etməyə can atırdılar. Bu görüşlər bir daha sübut etdi ki, Azərbaycanın mövqeyi yalnız regional deyil, artıq qlobal miqyasda da strateji əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, Azərbaycanın qlobal diqqət mərkəzinə çevrilməsi ölkəmizin dövlətçilik ənənələrinə, Prezident İlham Əliyevin uzaqgörən siyasətinə və xalqımızın birliyinə əsaslanır. Bu gün Azərbaycan həm iqtisadi, həm siyasi, həm də diplomatik cəhətdən regionun lideri olmaqla yanaşı, qlobal əməkdaşlıq və inkişaf gündəliyində də mühüm söz sahibinə çevrilib.

***P.SADAYOĞLU***

# Prezidentin uğurlu Nyu-York gündəliyi

## Nəhəng investorların təşəbbüsü ilə keçirilən görüşlər Azərbaycan Prezidentinin siyasi qüdrətinin göstəricisidir

BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorkda səfərdə olan Prezident İlham Əliyevin sentyabrın 22-də Nyu-Yorkda dünyanın iri maliyyə-investisiya şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlər siyasi-iqtisadi məzmun kəsb etməklə qlobal ictimaiyyətin xüsusi diqqət mərkəzində olub. Dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşdə faydalı iqtisadi əməkdaşlıq mübadilələrinə diqqət çəkilib. Brüs Flətt 2023-cü ildə ölkəmizə səfəri zamanı Azərbaycanda müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib. O, rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini vurğulayıb.

Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı əldə edilmiş nəticələrə toxunan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru bu sazişin bölgədə yeni siyasi-iqtisadi arxitektura formalaşdıracağına inamını ifadə edərək geniş bir coğrafiyada iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün də yaxşı imkanların yaranacağını vurğulayıb. Eyni zamanda, yeni çağırışlar dövründə şirkətin Azərbaycanla əməkdaşlığının uzunmüddətli strateji inkişafı üçün daha geniş potensialların formalaşacağına iman ifadə olunub.







### Sərmayə nəhəngi "Brookfield Asset Management"lə əməkdaşlıq planları

Alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük investisiya şirkətlərindən biri olan "Brookfield Asset Management" 1899-cu ildə təsis olunmuşdur və şirkətin özəl səhm, kredit, infrastruktur, daşınmaz əmlak, bərpa olunan enerji fondlarında idarə etdiyi vəsaitlərin ümumi dəyəri 1 trilyon dollar təşkil edir. Qlobal səviyyədə aparıcı investisiya şirkəti olan "Brookfield" bütün qitələri əhatə edən 30-dan çox ölkədə fərqli sektorlarda 2,500-dən çox aktiv investisiyaları idarə edir. Şirkətin baş ofisi Kanadanın Toronto şəhərində yerləşir. Şirkətə investisiya edən 2,000-ə yaxın institusional investor arasında nüfuzlu suveren fondlar, milli pensiya fondları, sığorta şirkətləri və digər idarəetmə şirkətləri var. 125 illik uğurlu investisiya tarixinə sahib olan "Brookfield", böyükmiqyaslı kapitala sahib olmasının yaratdığı imkanlar, ixtisaslaşmış əməliyyat bacarığı, qlobal əhatəsi və əlaqələrə sahib olması sayəsində həm institusional qurumların, həm də fiziki şəxslərin vəsait yatırdığı platformalara malikdir.

Bu qlobal investor regionlar üzrə yüksək səviyyədə diversifikasiya edilmiş portfelə sahibdir. Şirkət 550 milyard dollar dəyərində ABŞda, 230 milyard dollar dəyərində Avropa və Orta Şərqdə, 152 milyard dollar dəyərində Asiya Sakit Okean Hövzəsində, 66 milyard dollar dəyərində Kanadada və 61 milyard dollar dəyərində Cənubi Amerikada aktivləri idarə edir. Sektorlar üzrə isə 332 milyard dollar dəyərində kredit, 278 milyard dollar dəyərində daşınmaz əmlak, 222 milyard ABŞ dolları dəyərində infrastruktur, 150 milyard dollar dəyərində özəl səhm və 137 milyard ABŞ dolları dəyərində alternativ enerji üzrə investisiyanı idarə edir.

### Dövlət Neft Fondu ilə yaxın tərəfdaşlıq

1999-cu il etibarilə "Brookfield" mövcud olan hidroenerji portfelindən istifadə edərək qlobal miqyasda bərpa olunan enerji sahəsində fəaliyyətini genişləndirməyə başlayıb. 2017-ci ildən bəri şirkət dünyanın ən böyük bərpa olunan alternativ enerji operatorlarından birinə çevrilmişdir. Bərpa olunan enerji sahəsində "Brookfield" 43 qiqavat işlək enerji və 227 qiqavat həcminə sahib fiber boru xəttinə malikdir ki, bu rəqəm Hindistanın bugünkü elektrik gücündən çoxdur. Bu, dünyadakı ümumi bərpa olunan enerji gücünün təxminən 5 faizinə bərabər olmaqla "Brookfield"i dünyanın ən böyük "yaşıl enerji" oyunçularından birinə çevirir. Həmçinin bərpa olunan enerji sahəsində dünyanın aparıcı texnologiya şirkətləri ilə əməkdaşlıq edir.

Azərbaycanın milli suveren institutu olan Dövlət Neft Fondu (DNF) ilə yaxın əməkdaşlıq münasibətlərinə malik "Brookfield Asset Management" hazırda ölkəmizdə bərpaolunan enerji, logistika, telekom, data mərkəzləri, təhsil, infrastruktur layihələrinə maraq göstərir, eləcə də rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsində Azərbaycanla əməkdalığa önəm verdiyini gizlətmir.

### "Neuberger Berman" şirkəti ilə yeni investisiya gündəliyi

Prezident İlham Əliyevin "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru ilə görüşü də maraq doğuran işgüzar mühitdə keçib. Görüşdə Azərbaycan ilə "Neuberger Berman" şirkəti arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Ölkəmizin beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığında fəal yer alan "Neuberger Berman" şirkətinin investisiya planlarının əhəmiyyəti təqdir olunub. Xüsusilə də, 2016-cı ildən etibarən bu şirkətlə səmərəli tərəfdaşlıq edən Dövlət Neft Fondunun müasir investisiya alətləri tətbiq etməsində "Neuberger Berman"in təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlığı daha da irəliyə aparmaq niyyətini bəyan edən Corc Volker regionda baş verən iqtisadi proseslərin şirkət üçün əhəmiyyətini vurğulayıb, yeni layihələr çərçivəsində tərəfdaşlığın genişləndirilməsi üçün mövcud imkanların dəyərləndirildiyini bildirib.

1939-cu ildən fəaliyyət göstərən aparıcı qlobal investisiya şirkəti - "Neuberger Berman" hazırda 538 milyard dollar aktivləri idarə edir ki, bu vəsaitin 140 milyard dolları alternativ investisiyalara yönəldilmişdir. 26 ölkədə ofisləri olan "Neuberger Berman" səhmlər, istiqrazlar, hedc fondları, daşınmaz əmlak, infrastruktur və özəl səhmlər kimi aktiv növləri üzrə investisiyalar həyata keçirir. "Neuberger Berman" şirkətinin bir sıra uğurlu investisiyaları var ki, onların bəziləri aşağıda qeyd edilib:. "Nord Anglia Education" - "Neuberger Berman" digər investorlarlardan ibarət olan konsorsiuma rəhbərlik edərək dünyanın 30 ölkəsində yerləşən və təxminən 80-100 məktəbdən ibarət qlobal "K-12" məktəblər qrupunda paya sahibdir. Habelə "Solenis" - sənaye kimyəvi məhsullarının istehsalı üzrə ixtisaslaşmış qlobal şirkətdir. Şirkət su təmizləmə, kağız istehsalı və digər sənaye prosesləri üçün xüsusi kimyəvi həllər təqdim edir. Baş ofisi ABŞ-ın Delaver ştatında yerləşən şirkətin 16,500-dən çox mütəxəssisdən ibarət heyəti mövcuddur. Solenisin 70 istehsal müəssisəsindən ibarət qlobal şəbəkəsi var hansı ki altı qitədə və 160 ölkədə fəaliyyət göstərir. "Neuberger Berman" ilə DNF-nin strateji əməkdaşlığı 2016-cı ildən etibarən başlayıb. Xüsusi idarəetmə mandatı çərçivəsində DNF tərəfindən müxtəlif tranşlar vasitəsilə ümumilikdə təxmini 600 milyon dolları sərmayə qoyulub. Yeni mərhələdə DNF-nin "Neuberger Berman" ilə əməkdaşlıq əsasında ölkədə təhsil, səhiyyə, texnologiya, sənaye və istehlak sahələrinin qurulması və inkişafı mümkün hesab edilir.

### "Blackstone" şirkətindən ümidverici enerji və maliyyə dəstəkləri

Azərbaycan Prezidentinin Nyu-Yorkda "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşü də əməkdaşlıq perspektivləri baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və inkişaf proseslərinin beynəlxalq investorlar üçün cəlbedici imkanlar yaratdığını vurğulayan Conatan Qrey Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu qeyd edib.

1985-ci ildə təsis olunan "Blackstone" şirkəti özəl səhm, daşınmaz əmlak, kredit, infrastruktur, data mərkəzləri və bərpa olunan enerji fondlarında 1,2 trilyon dollar həcmində aktivləri idarə etməklə hal-hazırda dünyanın alternativ investisiyalar üzrə ən nüfuzlu investisiya meneceri hesab edilir. Bu aktivlər dünya ümumi daxili məhsulunun 1 faizindən çoxuna bərabərdir ki, bu da bir çox ölkələrin ÜDM-dən artıqdır. "Blackstone" şirkəti minlərlə institusional müştərinin - pensiya fondlarının, suveren fondların, sığorta şirkətlərinin və nüfuzlu universitetlərin nəzdində yaradılmış fondların - eləcə də milyonlarla fiziki şəxslərin vəsaitlərini idarə edir. Ümumilikdə, yüz milyonlarla insan uzunmüddətli yığımlarının idarə edilməsini "Blackstone" şirkətinə həvalə edib.

"Blackstone" hazırda dünyada 12 000-dən çox daşınmaz əmlaka sahibdir. Şirkətin yaşayış sektoru üzrə sərmayələri yüz minlərlə mənzili, milyonlarla insanı əhatə edir. "Blackstone"nin idarə etdiyi Link Logistics 46 milyon kvadratmetr anbar və logistika mərkəzinə sahibdir ki, bu nümunə olaraq Polşa Respublikasının ümumi logistika mərkəzlərinin cəminə bərabərdir. Şirkət, həmçinin 2022-ci ildə Avropanın ən böyük şəhərdaxili logistika platforması olan "Mileway" şirkətinin 21 milyard avro dəyərində rekapitalizasiya prosesini tamamlayıb. "Blackstone" süni intellekt, bulud texnologiyaları, rəqəmsal xidmətlər və infrastrukturun qurulmasında lider rolunu oynayır. Yaratdığı və investisiya etdiyi şirkətlər vasitəsilə dünyada texnologiya, səhiyyə, çatdırılma kimi meqatrendlərin genişlənməsində rol oynayır.

Beləliklə, Prezident İlham Əliyevin Nyu-Yorkda qarşı tərəfin müraciətləri ilə baş tutan görüşləri ölkəmizə və Liderinə olan dərin hörmətin və səmimi münasibətin göstəricisi kimi dəyərləndirilə bilər.

***ELBRUS CƏFƏRLİ***

# Geniş coğrafiyanı birləşdirən strateji layihə - Orta Dəhliz

Son illərdə dünyada müşahidə edilən kataklizmlər, ziddiyyətli geosiyasi və geoiqtisadi proseslər fonunda Xəzər hövzəsi regionuna, o cümlədən də Cənubi Qafqaza maraq durmadan artır. Burada Azərbaycanın önəmi və rolu isə daha qabarıq şəkildə nəzərə çarpır.

Bunu bu günlərdə Nyu-Yorkda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumunda ifadə olunan fikirlərdən də aydın görmək mümkündür. "Azərbaycanın əlverişli coğrafi mövqeyi - iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta Dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir", - deyə Prezident İlham Əliyev forum iştirakçılarına ünvanladığı müraciətində vurğulayıb.

**Avropanı Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut**

İndiki heç də adi olmayan bir şəraitdə Orta Dəhlizin cəlbediciliyi əhəmiyyətli dərəcədə artıb. Prezident İlham Əliyev forum iştirakçılarına müraciətində Orta Dəhlizi çox geniş coğrafiyanı birləşdirən strateji layihə kimi səciyyələndirib. Dövlətimizin başçısı bildirib ki, bu dəhliz Avropanı Xəzər dənizi vasitəsilə Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut, yüklərin Asiyadan Avropaya və əks istiqamətdə çatdırılmasının ən qısa və optimal yoludur.

Qeyd bedək ki, sözügedən dəhliz Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi də tanınır. Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır.

Orta Dəhlizin bir sıra önəmli üstünlüklərini sadalamaq mümkündür. İlk növbədə, onu vurğulamaq yerinə düşər ki, bütün marşrut boyunca vahid tarif, "bir pəncərə" prinsipi tətbiq olunur. Orta Dəhlizin əsas üstünlüyü ondan ibarətdir ki, bütün iştirakçı dövlətlər bu marşrutun funksionallığının artırılmasına güclü siyasi iradə nümayiş etdirirlər. Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq getdikcə genişlənir ki, bu da daşımalar, yüklərin cəlb edilməsi, logistika ilə bağlı məsələlərin uzlaşdırılmasına geniş imkanlar yaradır.

**Azərbaycanın yaratdığı vacib nəqliyyat infrastrukturları**

Yuxarıda vurğuladığımız kimi, hazırda Azərbaycan regionda gedən proseslərin, o cümlədən də Orta Dəhlizin funksionallığının artmasında aparıcı aktor qismində çıxış edir. Əvvəla, ölkəmiz əlverişli coğrafiyada yerləşməsi ilə Orta Dəhlizin çox mühüm bir həlqəsini təşkil edir. Lakin Azərbaycanın vazkeçilməz üstünlüyü yalnız coğrafiya ilə məhdudlaşmır. Burada ölkəmizin, şəxsən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsini xüsusi vurğulamaq lazımdır. Dövlətimizin başçısı müxtəlif auditoriyalarda əməkdaşlığa çağırışlar edir. Məhz respublikamızın fəallığının, davamlı təşviq siyasətinin nəticəsidir ki, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər dövlətlər Orta Dəhlizin inkişafını hədəfləyən platformalarda birləşiblər. Bu platformalar çərçivəsində uzlaşdırılmış fəaliyyətlər Orta Dəhlizin cəlbediciliyinin artmasına güclü impuls verir.

Azərbaycanın Orta Dəhlizin inkişafında digər bir mühüm rolu ölkə ərazisində vacib nəqliyyat infrastrukturunun yaradılması ilə bağlıdır. Dövlətimizin başçısının məmnunluq hissi ilə vurğuladığı kimi, biz Orta Dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də, dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yatırmışıq.



Azərbaycanın Orta Dəhlizin inkişaf etdirlməsinə verdiyi töhfələrdən bəhs edərkən iki layihənin önəmini ayrıca qeyd etmək lazımdır. Bunlardan biri 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Azərbaycanın təşəbbüsü və moderatorluğu ilə ərsəyə gələn BTQ region ölkələrinin tranzit potensialının artmasına yeni imkanlar yaradıb. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirlməsi layihəsi ötən il tamamlanıb. Genişləndirmədən sonra BTQ-nin illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb.

Güclü dövlət olan Azərbaycan həmçinin liderlik keyfiyyətləri nümayiş etdirərək Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Bu liman hazırda dünyada mövcud olan ən yüksək standartlar səviyyəsində inşa olunub. Yeni liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Hazırda Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. "Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması - bütün bunlar Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır. Orta Dəhlizin Azərbaycan seqmentində infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması, modernləşdirilməsi və ötürücülük qabiliyyətinin genişləndirilməsi prosesi hazırda da davam etməkdədir", - deyə Prezident İlham Əliyev bildirib.

**İntensiv şəkildə artan daşımalar**

Orta Dəhlizin Avrasiyada vazkeçilməz önəmi bu marşrutla tranzit daşımalarının intensiv şəkildə artmasını əks etdirən statistikada da aydın şəkildə görünür. Son üç ildə Transxəzər marşrutu üzrə Azərbaycan vasitəsilə yükdaşımalarının həcmi təxminən 90 faiz artıb, eyni zamanda, yüklərin keçid müddəti əhəmiyyətli dərəcədə azalıb. Proqnozlar da kifayət qədər nikbindir. Belə ki, 2030-cu ilədək Orta Dəhlizin yük daşıma qabiliyyətinin 2021-ci il ilə müqayisədə 3 dəfə artacağı, yüklərin keçid müddətinin isə 2 dəfə azalacağı ehtimal olunur.

Transxəzər marşrutunun perspektivi həm də zamanında qalib Azərbaycanın təşəbbüsü ilə gündəmə gələn Zəngəzur Dəhlizinin yaradılması ilə bağlıdır. Azərbaycan bu dəhlizin yaradılmasına həm güclü siyasi iradə göstərir, həm də öz ərazisində zəruri layihələrin icrasını intensiv şəkildə davam etdirir. "Cari ilin 8 avqust tarixində Vaşinqtonda ABŞ Prezidenti cənab Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanmış birgə bəyannamə Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) əsasını qoydu. İnanıram ki, Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Prezident: Bu gün Azərbaycanda milli statistika sistemi ardıcıl şəkildə inkişaf etdirilir

### “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda Beynəlxalq Statistika Forumunun iştirakçılarına



Hörmətli Forum iştirakçıları!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda Beynəlxalq Statistika Forumunun öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.

Məmnuniyyətlə vurğulamaq istəyirəm ki, bu mötəbər tədbir milli statistika sistemlərinin inkişafı, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Hesab edirəm ki, Forum çərçivəsində müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gəlməsi statistika sahəsində qabaqcıl bilik və təcrübələrin bölüşülməsi, eləcə də birgə layihələrin təşviqi üçün əlverişli mühit yaradacaqdır.

Müasir dövrdə statistika cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün öz əhəmiyyətini daha da artıraraq mühüm vasitələrdən birinə çevrilmişdir. Etibarlı statistik məlumatlar dayanıqlı inkişafın təmin olunmasında, əsaslandırılmış qərarların qəbulunda və şəffaf idarəetmənin qurulmasında böyük rol oynayır. Bu səbəbdən, Beynəlxalq Statistika Forumu metodoloji yeniliklərin təqdim edilməsi və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından universal bir platforma kimi çıxış edir.

Bu gün Azərbaycanda milli statistika sistemi ardıcıl şəkildə inkişaf etdirilir, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalı daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda, süni intellekt kimi müasir çağırışlar statistika sahəsində yeni metodologiyaların, alət və yanaşmaların işlənib hazırlanmasını, gələcək hədəflərin düzgün müəyyənləşdirilməsini zəruri edir. Bu hədəflərin reallaşdırılması üçün isə effektiv beynəlxalq əməkdaşlıq və onun imkanlarının düzgün dəyərləndirilməsi vacibdir. Biz rəsmi statistika sahəsində müasir texnologiyalara, süni intellektə və rəqəmsal transformasiyaya əsaslanan islahatlara xüsusi önəm veririk. Ölkəmiz bu istiqamətdə aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edərək qlobal inkişaf gündəliyinə töhfə verməyə səy göstərir.

Bildiyiniz kimi, BMT-nin Statistika Komissiyasının qərarı ilə bu il oktyabrın 20-də “Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək” şüarı altında Ümumdünya Statistika Günü qeyd ediləcəkdir. Əminəm ki, həmin əlamətdar gün ərəfəsində baş tutan Forum statistika cəmiyyətinin bir araya gələrək gələcəyə yönələn önəmli təşəbbüslər irəli sürəcəyi, qarşılıqlı bilik və təcrübə mübadiləsi aparacağı məhsuldar müzakirələrlə yadda qalacaqdır.

Hər birinizi qarşıdan gələn Ümumdünya Statistika Günü münasibətilə təbrik edir, Forumun işinə uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2025-ci il***

# “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu öz işinə başlayıb


















Bakı şəhərində “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının növbəti iclası keçirilir.

Forum iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb. Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Mötəbər beynəlxalq tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirib, Ümumdünya Statistika Günü ərəfəsində keçirilən Forumun dövlətimizin beynəlxalq imicinin möhkəmləndirilməsi, statistika sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, habelə Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Daha sonra MDB İcraiyyə Komitəsi sədrinin müavini Denis Trefilov, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri Konstantin Laykam, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, BMT-nin Avropa İqtisadi Komissiyasının Statistika şöbəsinin direktoru Tiina Luige, Dünya Bankının Qlobal Beynəlxalq Müqayisələr Proqramının rəhbəri Marko Olavi Rissanen çıxış edərək Forumun müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gətirilməsi, statistika sahəsində qabaqcıl bilik və təcrübələrin mübadiləsi, yeni hədəflərin müəyyən edilməsi, eləcə də birgə layihələrin təşviqi, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildiriblər.

3 gün davam edəcək Forumda Milli Hesablar Sistemi-2025, valyutaların alıcılıq qabiliyyətinin pariteti əsasında beynəlxalq müqayisələr proqramı, əhali və mənzil fondu siyahıyaalınmasının 2030-cu il mərhələsi, Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqi, həmçinin sahə və çoxsektorlu layihələrlə bağlı məsələlər müzakirə olunaraq, informasiya texnologiyaları, statistik məlumatların inteqrasiyası, institusional qərarlar, statistikada səriştəliliyin inkişafı ilə əlaqədar layihələrin effektivliyi qiymətləndiriləcəkdir.

Şuranın iclası zamanı isə onun son üç ildəki fəaliyyəti, “MDB statistikasının inkişafı” layihəsinin icra vəziyyəti, perspektivləri və digər məsələlər müzakirə olunub.

# Bakının sülh təşəbbüsü BMT-nin diqqət mərkəzində - Baş Assambleyadakı müzakirələr

## Qlobal dünya Azərbaycanı nümunə göstərir



Nyu-Yorkda yerləşən mənzil qərargahda keçirilən BMT Baş Assambleyasının 80-ci sessiyası vacib açıqlamalar və mühüm bəyanatlarla müşayiət olunmaqdadır. Hazırkı, konfrantasiyalar daha da şiddətləndiyi dövrdə sülh və əməkdaşlığa, eləcə də yeni münasibətlər sisteminə ehtiyac olması bütün konturlar üzrə ortadadır. Qeyd edək ki, tədbir çərçivəsində dünyanın bir sıra aparıcı siyasət adamlarının, dövlət və hökumət başçılarının verdiyi açıqlamalarda da bu durumdan çıxış yolları araşdırılıb.

### İnsanlar daha yaxşı bir sistem axtarışındadırlar

Yüksəksəviyyəli debatlardakı çıxışında BMT Baş katibi Antonio Quterreş bildirib ki, biz amansız insan əzabları dövrünə qədəm qoymuşuq. BMT prinsiplərinin mühasirədə olduğunu vurğulayan Baş katib deyib ki, cəzasızlıq və bərabərsizliyin ağırlığı altında sülhün əsas prinsipləri dağılır: "Dünyanın hər yerində insanlar daha yaxşı bir sistem axtarışındadırlar. Bu səbəbdən bir seçim etmək məcburiyyətindəyik. İnsan haqları və qlobal ədalət axtarışında olmalıyıq. Gələcək xəyalını qurduğumuz gələcək olmalıdır".

Quterreş qeyd edib ki, artıq üç ilə yaxındır Qəzzada dəhşət davam edir: "Bunlar bəşəriyyətə meydan oxuyan qərarların nəticəsidir. Mən daha əvvəl Qəzzadakına bənzər bir şiddət görməmişəm. Qəzza sakinləri insan haqlarından məhrum olaraq yaşayırlar. Razılaşmalarımız tam şəkildə həyata keçirilməlidir".

BMT Baş katibi münaqişə və konfrantasiyaların həlli istiqamətində ən vacib presedentlərdən sayılan Ermənistan-Azərbaycan münasibətlərinə də toxunub. O bildirib ki, Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunan sülh razılaşmaları bütün dünya üçün müsbət hadisədir. "Hər yerdə - Haitidən Yəmənə, Myanmaya, Sahelə və onun hüdudlarından kənarda - biz beynəlxalq hüquqa əsaslanan sülh yolunu seçməliyik. Ötən il bizə ümid işartıları gətirdi: məsələn, Kamboca və Tailand arasında atəşkəs və ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında saziş. Ancaq çox sayda böhran yenə də nəzarətsiz qalır", - baş katib vurğulayıb.

### Tramp: Yeddi ay ərzində yeddi sonsuz müharibəni bitirdim

Sessiyanın gedişində maraqla və diqqətlə izlənən çıxışlardan biri də ABŞ Prezidentinin söylədiyi fikirlər oldu. Belə ki, çıxışında Donald Tramp BMT-ni dünyadakı münaqişələrin həlli məsələsində fəaliyyətsizlikdə ittiham edib. Tramp bildirib ki, təşkilatın "nəhəng potensialı var, amma o, bunu həyata keçirməyə yaxın belə deyil". O, bəyan edib ki, ikinci prezidentlik müddətinin yeddi ayı ərzində Azərbaycan və Ermənistan arasındakı qarşıdurma da daxil olmaqla yeddi münaqişəni həll edə bilib. "Yeddi ay ərzində yeddi sonsuz müharibəni bitirdim. Təxminən 31 il, biri 36, digəri 28. Burada söhbət Kamboca və Tailand, Kosovo və Serbiya, Konqo və Ruanda, Pakistan və Hindistan, İsrail və İran, Misir və Efiopiya, həmçinin Ermənistan və Azərbaycan arasında münaqişələrdən gedir", - Tramp qeyd edib. ABŞ Prezidenti qeyd edib ki, BMT bu məsələdə heç bir köməklik göstərməyib.

Tramp xatırladıb ki, ilk prezidentlik dönəmində yaratdığı sabitlik indi dağılıb və yerini böyük böhranlara verib: "Son dəfə bu zalda dayanıb çıxış etdiyimdən altı il ötür. Həmin vaxt dünya firavan və dinc idi. Mənim yaratdığım sülh iki qitədə dağıldı, sakitlik və sabitlik dövrü isə tariximizin ən böyük böhranlarından biri ilə əvəzləndi". Tram vurğulayıb ki, bir il əvvəl ölkəmiz böyük bəla içərisində idi. Mənim rəhbərliyimlə cəmi səkkiz aydır dünyanın ən güclü ölkəsiyik. "Amerika yer üzündə ən güclü iqtisadiyyata, ən güclü sərhədlərə, ən güclü orduya, ən güclü dostluğa və ən güclü ruha malikdir Bu, həqiqətən də Amerikanın qızıl dövrüdür. Amerika iqtisadiyyatını sürətlə dəyişdik", - deyə Tramp bildirib. ABŞ dövlət başçısı nüvəsizləşdirməyə və bioloji silahların tədqiqinin və inkişafının dayandırılmasına da çağırış edib. O, Ukraynadakı müharibənin hələ də davam etməsindən təəssüfləndiyini bildirib. Yaxın və Orta Şərqlə bağlı məsələyə gəldikdə isə, Tramp Fələstin dövlətini tanımaq qərarını HƏMAS-ın İsrailə hücumu da daxil olmaqla, törədilyi vəhşiliklərə görə mükafatlandırılması adlandırıb. O, təəssüflə bildirib ki, HƏMAS sülhə dair ağlabatan təklifləri dəfələrlə rədd edib. Tramp, həmçinin HƏMAS-ı bütün girovları azad etməyə çağırıb. Tramp, həmçinin Avropa ölkələrini miqrasiya böhranını həll edə bilmədikləri üçün tənqid edib - bildirib ki, Avropa ölkələrində miqrantlar tərəfindən törədilən cinayətlər artmaqda davam edir. Eyni zamanda, o, Vaşinqtonun bu problemin həllini tapdığını da vurğulayıb.

### Türkiyədən təbrik...

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın BMT tribunasından etdiyi çıxışı da qlobal mühitdə maraqla qarşılanıb. Türkiyə lideri Yaxın və Orta Şərqə diqqət çəkərək bildirib ki, bu gün qəzzalı məzlumlar üçün səsimizi yüksəltdiyimiz kimi, 13 il də bu kürsüdən suriyalıların fəryadlarına diqqət çəkdik. Ərdoğan ötən ilin dekabrında Suriyada baş verən çevrilişə toxunub, Suriyanın o tarixdən etibarən yeni dönəmin qapılarını açdığını deyib. Fələstinə gəldikdə isə, Ərdoğan deyib ki, insanlıq tarixi son bir əsrdə belə vəhşilik görməyib. "Hər şey gözümüzün önündə olur. Soyqırımı dünya mediası və sosial media vasitəsilə yayılır. Qəzzada insanlara yardım üçün qaçan 500 nəfər öldürülüb. Bunların 326-sı BMT təmsilçisidir. Qəzzada müharibə yoxdur, burada iki tərəfdən söhbət gedə bilməz. Bir tərəfdə bioloji silahlarla silahlanmış ordu, digər tərəfdə məsum insanlar, uşaqlardır. Bu, terrorla mübarizə deyil", - deyə Türkiyə Prezidenti əlavə edib.

Türkiyə Prezidenti ölkəsinin Rusiya ilə Ukrayna arasında İstanbul prosesinə ev sahibliyi etdiyini də vurğulayıb. O bildirib ki, Türkiyə iki ölkə arasında birbaşa görüşlər sayəsində çoxsaylı əsir və nəşin mübadiləsinə vasitəçilik edib. "Hazırda sülh müzakirələrinin variantlarını müəyyən etməyə çalışırıq. Müharibənin qazananı, ədalətli sülhün itirəni olmaz. Gələcək dönəmdə də atəşkəs üçün səy göstərməyə davam edəcəyik", - deyə Ərdoğan qeyd edib.

Türkiyə Prezidenti həm də beynəlxalq ictimaiyyəti Şimali Kipr Türk Respublikasını (ŞKTR) tanımağa və onun uzunmüddətli təcridinə son qoymağa çağırıb: "Biz Aralıq dənizində konstruktiv əməkdaşlığa hazırıq və qonşularımızdan da eyni gözləyirik. Türkiyə və ŞKTR-i istisna edən hər hansı layihə Şərqi Aralıq dənizində uğursuzluğa məhkumdur".







Qardaş ölkənin başçısı Ermənistan-Azərbaycan sülh prosesinə də toxunub. O Ermənistan-Azərbaycan arasında illərlə davam edən münaqişə ilə bağlı tərəflərə mövqelərini aydın şəkildə bildirdiklərini qeyd edib. "Avqustun 8-i ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında paraflanan dayanıqlı sülh sazişini yüksək qiymətləndiririk. Bu münasibətlə bir daha buradan Azərbaycan Prezidenti, əziz qardaşım İlham Əliyevi, ABŞ lideri Donald Trampı və Ermənistan Baş naziri Nikol Paşinyanı təbrik edirəm". R.T.Ərdoğan deyib ki, bununla əlaqədər Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi davam edəcək.

### Mərkəzi Asiya alqışlayır...

Baş Assambleya çərçivəsində edilən çıxışlarda Azərbaycanın regionda yaratdığı yeni reallıqlar da diqqət mərkəzində olub. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev BMT Baş Assambleyasının 80-ci sessiyasının ümumi müzakirələrində ölkəsinin ABŞ Prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasını alqışladığını önə çəkib. Onun sözlərinə görə, bu, "köhnəlmiş münaqişələrin" diplomatiya yolu ilə həll edilə biləcəyini sübut edir. "Bu prinsipə əsaslanaraq, Qazaxıstan həmişə eskalasiya əvəzinə, diplomatiya və güc yerinə, dialoq tərəfdarıdır", - deyə Qazaxıstan lideri vurğulayıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də rəsmi Daşkəndin müasir çağırışlar və təhdidlərə qarşı daha effektiv mübarizəyə imkan verməsi baxımından BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsini dəstəklədiyini deyib. "Biz Baş katib Antoniu Quterreşin BMT-ni mürəkkəb və kəskin qlobal məsələlər üzrə kompromis qərarların əldə edilməsi üçün əsas platforma kimi qorumaq səylərini yüksək qiymətləndiririk. Müasir çağırış və təhdidlərlə daha səmərəli mübarizə aparmaq, inkişaf etməkdə olan dövlətlərin maraqlarını qorumaq məqsədilə BMT Təhlükəsizlik Şurasının tərkibinin transformasiyası və genişləndirilməsini də dəstəkləyirik", - deyə Ş. Mirziyoyev bildirib.

### Aİ-dən qərar...

Avropa Komissiyasının sədri Ursula fon der Leyen isə BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində ABŞ Prezidenti Donald Trampla danışıqlardan sonra fikirlərini bölüşüb - deyib ki, Avropa İttifaqı (Aİ) 2027-ci ilə qədər Rusiya enerji resurslarının alınmasından birdəfəlik imtina etməyi planlaşdırır. "2027-ci ilə qədər Avropa Rusiyanın enerji təchizatı ilə bağlı səhifəni həmişəlik çevirəcək".

Siyasətçi əlavə edib ki, Aİ və ABŞ Rusiyanın qalıq yanacaq gəlirlərini tez bir zamanda kəsmək" barədə razılığa gəlib. Onun sözlərinə görə, tərəflər Estoniya və Polşadakı son hadisələri də müzakirə ediblər.

***P.İSMAYILOV***

---

# Səssiz düşmən...

## Mina terroru davam edir

## 5 ildə nə neçə insan qurban olub?

Müharibələr bir imza, bir sülh çağırışı ilə bitir, silahlar susur, tanklar geri çəkilir, səngərlər boşalır. Ancaq hər müharibənin arxasında unudulmuş ölüm təhlükəsi- mina qalır. Azərbaycanın azad edilmiş torpaqlarında mina terroru hələ də davam edir və insanlarımızı canından, həyatından, ümidlərindən məhrum edir. Bir sözlə, mina hədəf seçmir, tarix, din, yaş tanımır, sanki torpağın altına basdırılmış ölüm hökmüdür.

2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra azad edilmiş ərazilərimizdə mina təmizləmə prosesi geniş miqyasda aparılır. Ancaq bu proses zaman və resurs tələb edir. Hər gün bir ailə doğma yurduna dönmək istəyir, hər gün bir ana övladını təhlükəsiz yerdə böyütmək arzusundadır. Amma hər addım bir risk, hər torpaq parçası bir təhdiddir sanki.

### Daha bir qurban...

Sentyabrın 23-də Ağdamın Şıxlar kəndi ərazisində mina hadisəsi baş verib. Bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyi (ANAMA) məlumat yayıb. Hadisə nəticəsində ehtiyatda olan gizir Səyyaf Əhmədov həyatın itirib.

Təəssüf ki, mina terroru bu gün də can almağa davam edir. Qeyd edək ki, sentyabrın 21-də 90-a yaxın ölkənin xüsusi xidmət orqanları rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə III Bakı Təhlükəsizlik Forumu yüksək səviyyədə baş tutub. Forumda diqqət çəkilən mövzulardan

### Forumda təhlükəsizlik müzakirəsi

biri Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı olub. Məhz bu əməliyyatda əldə olunan uğur sayəsində ölkəmizdə separatizmin kökü kəsilib və onların terror təhlükəsinə son qoyulub.

Forumda çıxışı zamanı Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-polkovnik Əli Nağıyev bildirib ki, təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyətinin düzgün təşkili yalnız fövqəladə halların nəticələrini azaltmaqla məhdudlaşmır, eləcə də humanitar tədbirlərin həyata keçirilməsinə dəstək verməklə həm vətəndaşların rifahının yaxşılaşdırılması, həm də dövlətin təhlükəsizlik və legitimlik maraqlarının təmin olunması baxımından həlledici əhəmiyyət daşıyır.

### Rəqəmlərin dili...

Rəsmi məlumatlara görə, 2020-ci ildən bu günə qədər minaya düşmə nəticəsində yüzlərlə insan həyatını itirib və ya ağır xəsarət alıb. Bu yalnız bir statistika deyil, bir ömrün yarımçıq qalması, bir ailənin dağılması, bir uşağın valideynsiz qalması deməkdir. Hər mina həyatın yalnız torpağı yox, eyni zamanda gələcək arzuları da parçalayır.

Statistikaya əsasən, 2020-ci ilin noyabr ayından 2025-ci ilin sentyabr ayına qədər, Ermənistanın Azərbaycana qarşı apardığı mina terroru nəticəsində ümumilikdə 400 nəfər mina və partlamamış hərbi sursat partlayışlarının qurbanı olub. Bu şəxslərdən 70-i həlak olub, 330-u isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb



### Beynəlxalq cinayətin sübutu

Minaların müharibə başa çatdıqdan sonra da yerləşdirilməsi beynəlxalq hüquqa görə müharibə cinayətidir. Azərbaycanın azad edilmiş ərazilərində Ermənistan tərəfindən qəsdən və sistematik şəkildə minalar yerləşdirilməsi sadəcə hərbi yox, həm də humanitar cinayətdir. Bu, bəşəri dəyərlərə zidd olan, insan həyatını təhdid edən, mülki əhalini hədəfə alan açıq bir mina terrorudur.

Bugünkü Azərbaycan reallığında mina məsələsi təkcə təhlükəsizlik problemi deyil, həm də sosial-iqtisadi və psixoloji problemdir. Kənd təsərrüfatı dayandırılıb, infrastruktur bərpası çətinləşib, insanlar hələ də öz yurdlarına qayıdan yolu təhlükəsiz yol gözləyir. Hər mina insanın öz torpağından ayrı düşməsinin, doğma ocağın həsrətində yaşamasının səbəbidir.

### Mina təmizliyi yalnız mexaniki proses deyil

Mina təmizliyi yalnız texniki məsələ deyil, bu həm də insani borcdur. ANAMA və digər müvafiq qurumlar tərəfindən görülən işlər təqdirəlayiqdir. Ancaq bu prosesə beynəlxalq dəstək, ictimai səfərbərlik və maarifləndirmə də zəruridir. Çünki mina təhlükəsi yalnız bir regionun yox, bütün bəşəriyyətin problemidir. Dünya bu məsələyə biganə qala bilməz.

İşğaldan azad edilmiş torpaqlarımızın minalardan təmizlənməsi sahədə Türkiyə ilə çoxtərəfli əməkdaşlıq həyata keçirilir. Türkiyə Azərbaycan üçün peşəkar heyətlərin hazırlanması ilə bərabər, özünün mina təmizləmə qruplarını, həm də öz avadanlıqları ilə bərabər Qarabağa göndərib. Digər tərəfdaşımız Pakistan da minaların təmizlənməsində köməyini təklif edib. Beynəlxalq təşkilatlar və başqa xarici ölkələrin maliyyə dəstəyi ilə minaların təmizlənməsi üçün bir sıra layihələr baş tutub.

Ermənistanın bütün cəhdlərinə baxmayaraq, Azərbaycan öz ərazilərini minalardan təmizləyir, işğaldan azad edilmiş torpaqlarımızı təhlükəsiz, yararlı hala gətirir, soydaşlarımız doğma dədə-baba yurdlarına qayıdırlar. Bu işlərdə ərazilərin minalardan təmizlənməsində fəaliyyət göstərənlərin əməyi xüsusi qeyd edilməlidir.

Sülh sadəcə silahların susması deyil, həyatın normal axarına dönməsidir. Çünki mina təhlükəsi aradan qaldırılmadan bu mümkün deyil. Müharibə bitsə də, mina terroru davam edir. Bu, sadəcə bir fakt deyil, bu, qlobal vicdana ünvanlanan bir çağırışdır.

***Yeganə BAYRAMOVA***

# 10 milyard dollardan çox investisiya layihələri

## Beynəlxalq İnvestisiya Forumu Azərbaycanının cəlbedici investisiya dövləti olduğunu təsdiqlədi




Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində enerji və maliyyə sektoru üçün yeni mühüm sazişlər imzalanıb. Azərbaycanın milli neft korporasiyası - SOCAR-la “Italiana Petroli S.p.A” şirkətinin məxsus olduğu “MIP S.p.A” şirkəti arasında imzalanmış müqavilə yeni enerji əməkdaşlığı üçün əhəmiyyətli sənəddir. Müqaviləyə əsasən, SOCAR-ın İtaliyada böyük bir enerji infrastrukturunda iri sərmayəçi kimi təmsilçiliyi təmin ediləcək və Avropanın mərkəzi nöqtələrindən birində yanacaq emal bazası formalaşacaq. Bununla da Azərbaycanın qlobal enerji bazarındakı mövqeyi güclənəcək.

SOCAR-ın İtaliya neft holdinqi ilə səmərəli əlaqələr qurması Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən regional və qlobal əhəmiyyətli enerji layihələrində, neft-kimya sahəsində uğurlu tərəfdaşlığına verilən etimadın və inamın nümunəsi hesab edilə bilər. Saziş Azərbaycanın qlobal enerji təhlükəsizliyində rolunun möhkəmlənməsinə, Avropa bazarına birbaşa çıxış imkanlarının artmasına, dəyər zəncirinin genişlənməsinə və logistika üstünlüklərinin güclənməsinə mühüm töhfələr verəcək. Bu əməkdaşlıq enerji sektorunun müxtəlif istiqamətlərində yeni kəşflərin və texnoloji həllərin ərsəyə gəlməsinə, o cümlədən neft yataqlarının kəşfiyyatı və işlənməsi, bərpaolunan enerji layihələri, qabaqcıl texnoloji yeniliklərin sənayedə tətbiqinə də yeni stimullar verəcək.

### İtaliyada Azərbaycanın nəhəng enerji infrastrukturu yaradılır

“Italiana Petroli S.p.A”nın İdarə Heyətinin sədri Uqo Braçetti Peretti bildirib ki, uzun tarixi olan bu şirkət kimi son illərdə uğurlu fəaliyyət göstərməklə İtaliyada ilk neft şirkəti qurub, fəaliyyətini genişləndirməklə son illərdə həm pərakəndə satış, həm emal, həm də logistika sahəsində böyük təcrübə qazanıb. Bu baxımdan SOCAR-la əməkdaşlıq İtaliyaya yeni investisiyalar, müasir yanaşma və dəyərli təcrübə gətirə bilər. Bu, eyni zamanda, SOCAR-ın timsalında Azərbaycanın Aralıq dənizi regionunda qaz, xam neft və neft məhsullarının istehsalı və tədarükü ilə yanaşı, birbaşa Avropa yanacaq infrstrukturu sistemində fəal yer alması təmin edəcək.

Forumda SOCAR digər qlobal investorlarla da anlaşmalar əldə edib ki, bu da Azərbaycan milli neft şirkətinin dünya investisiya alyansında nüfuzunun və səhmdar kimi mövqeyinin möhkəmlənməsinin göstəricisidir. Qeyd edək ki, 2 ay əvvəl “Moody’s” beynəlxalq reytinq agentliyi SOCAR-ın investisiya oluna bilən dərəcəyə keçidini nəzərdə tutan uzunmüddətli emitent reytinqini “BAA3” (sabit) dərəcəsinə yüksəldib. Agentlik SOCAR-ın sağlam maliyyə göstəriciləri, şirkətdə şəffaflığın və hesabatlılığın gücləndirilməsi və təkmilləşdirilmiş korporativ idarəetmə mexanizmlərinin formalaşdırılmasını əsaslı faktorlar kimi nəzərə alaraq reytinqin yüksəldilməsinə qərar verib. Neft və qaz bazarlarında qiymət dalğalanması və əməliyyat volatilliyi kimi çətinliklərə baxmayaraq, SOCAR ardıcıl dörd il müsbət sərbəst pul axını, etibarlı kredit göstəriciləri və sağlam likvidlik mövqeyi nümayiş etdirib. Reytinq, həmçinin SOCAR-ın davamlı olaraq beynəlxalq əməkdaşlığı genişləndirməsini də nəzərə alır. “Moody’s”in sabit proqnozu SOCAR-ın kredit keyfiyyətini və səmərəli maliyyə idarəçiliyini qoruyub saxlamaq bacarığına olan inamı əks etdirir.

### Alternativ enerji sektoru üçün mühüm layihə

Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində “EelElectric” MMC ilə elektrik mühəndisliyi və energetika sahəsində ixtisaslaşmış İsveç-İsveçrə transmilli korporasiyası “ABB Group”un Türkiyə nümayəndəliyi arasında Modul Panel Sistemlərinin quraşdırılmasına dair müqavilə imzalanıb. Bu saziş bərpaolunan enerji quruculuğunda önəmli layihələrdən biri kimi mühüm əhəmiyyət kəsb edir və Azərbaycanda ağıllı texnologiyaların tətbiqi imkanlarını və qabaqcıl investorların təcrübəsinin ölkəyə gətirilməsini təmin edəcək. Yüksək sənayelər parklarında tanınmış investor kimi tanınan “EelElectric” MMC Azərbaycanda bir neçə layihədə iştirak payına da malikdir. Belə ki, Ağdam Sənaye Parkında fəaliyyət göstərən “Eel Electric” elektrik avadanlıqlarının istehsalı ilə məşğuldur. MMC elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalına görə, regional liderlərdən biridir. Avropa və Türkiyənin qabaqcıl texnologiyasının tətbiqinə üstünlük verən şirkət güc panelləri və idarəetmə panelləri, kondensator qurğuları və elektromobillərin şarj cihazları istehsal edir. Bu baxımdan “EelElectric” MMC ilə “ABB Group”un Türkiyə nümayəndəliyi arasında imzalanan saziş alternativ enerji sahəsində yeni güc infrastrukturu formalaşdıracaq.



### “Daşkəsən Dəmir Filiz” sənayesinə 700 milyon dollar yeni sərmayə

Digər mühüm saziş yüksək dəmir tərkibli isti briketləşdirilmiş dəmir istehsalı üçün birgə müəssisənin yaradılmasını nəzərdə tutur. “Daşkəsən Dəmir Filiz” MMC və “Fonte GreenMet Investments Fund OEIC Limited” investisiya şirkəti arasında imzalanmış sazişə əsasən ölkəmizə təqribən 700 milyon dollar dəyərində xarici investisiya yatırılacaq. “Fonte GreenMet Investments Fund OEIC” şirkətinin baş direktoru Erjan Musin bildirib ki, bu invesütisiya qərarı xarici investisiya layihələri arasında xüsusi strateji yer tutacaq və investisiya portfelimizin mühüm tərkib hissəsinə çevriləcək. Birgə əməkdaşlıq təkcə iqtisadi sahədə deyil, həmçinin elmi-texniki biliklərin mübadiləsi, müasir texnologiyaların tətbiqi və birgə innovativ istehsalın təşkili baxımından da geniş imkanlar açır. Layihənin həyata keçirilməsi Azərbaycanın yüksəkkeyfiyyətli metallurgiya məhsulları istehsalçısına çevrilməsinə, bununla da bütün Qafqaz regionunun sənaye xəritəsində yeni mərhələnin başlanmasına şərait yaradacaq.

Ümumilikdə, Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində ümumi dəyəri 10 milyard dollardan çox olan investisiya layihələrinə dair sənədlər imzalanıb. Bunlardan ölkəmizdə xarici investisiyaların cəlbi ilə qeyri-neft sektoru üzrə həyata keçirilməsi nəzərdə tutulan layihələrin dəyəri 7 milyard dollardan çoxdur.

İmzalanan sənədlər və əldə edilən razılaşmalar Azərbaycanın xarici sərmayə üçün açıq və dayanıqlı iqtisadi mühitini, ölkənin strateji layihələr və uzunmüddətli əməkdaşlıqlar üçün etibarlı tərəfdaş olduğunu nümayiş etdirir. Böyükmiqyaslı sərmayələr Azərbaycanın investisiya cəlbediciliyini bir daha təsdiqləməklə yanaşı, innovasiya və texnologiya transferini sürətləndirir, dayanıqlı inkişaf məqsədlərinə nail olmaqda yeni imkanlar açır.

**E.CƏFƏRLİ**

# Yeni sosial yığım mənbəyi - özəl pensiya fondları

## Fondun yaradılması vətəndaşlara iki mənbədən pensiya kapitalı formalaşdıracaq

Azərbaycanda özəl pensiya fondlarının yaradılması istiqamətində qanunvericilik bazası hazırlanır və razılaşdırma mərhələsindədir. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, layihə sənədinin parlamentin payız və ya gələn ilin yaz sessiyasında təqdim olunacağı gözlənilir. Dövlət Sosial Müdafiə Fondu tərəfindən hazırlanmış “Qeyri-dövlət pensiya fondları haqqında” qanun layihəsi aidiyyəti qurumlar tərəfindən də müsbət rəy alıb. Hazırda müvafiq qurumlarla birlikdə müzakirə edilən qeyri-dövlət (özəl) pensiya fondlarının fəaliyyətinin hüquqi, iqtisadi və maliyyə əsaslarının formalaşdırılması ilə bağlı məsələlər üzərində yekun iş aparılır. Həmin qurumların yekun rəy və təklifləri nəzərə alınmaqla layihə son təkmilləşdirmələrdən sonra parlamentə təqdim ediləcək.

### Özəl pensiya fondları nədir?

Özəl pensiya fondlarının yaradılması sığorta-pensiya sisteminin yeni inkişaf konsepsiyası ilə bağlı sənəddə nəzərdə tutulan prioritetlərdən biridir. Əsas məqsəd işləyənlərin fərdi uçot sistemi bazasının genişləndirilməsi, pensiya təyinatı zamanı sığorta hesabında toplanmış vəsaitlərin şaxələndirilməsi və digər maliyyə təyinatlı fondlarda toplanmasıdır. Bu siyasətə uyğun olaraq Azərbaycanda özəl pensiya fondlarının yaradılması üçün normativ-hüquqi sənəd hazırlanmasına qərar verilib.

Özəl pensiya fondları qeyri-dövlət pensiya fondudur və beynəlxalq təcrübədə neçə illərdir ki, geniş istifadə edilir və alternativ pensiya yığımıdır. Bu cür fondlar sosial sığorta vəsaitlərinin dövr etdirilməsini, pensiyanın təyinini və ödənilməsini həyata keçirən bir qurum kimi formalaşdırılır. Dövlət pensiya fondlarından fərqli olaraq özəl pensiya fondu əhalinin öz qazancı hesabına yığdığı təqaüdlərin saxlanması üçün yaradılan bazadır.

Özəl fondlarla dövlət fondlarının fərqi könüllülük prinsipinə söykənməsidir. Fond və vətəndaş arasında imzalanan müqavilə şərtlərinə uyğun olaraq onun hər ay maaşının və yaxud gəlirlərinin bir hissəsindən köçürdüyü pullar alternativ pensiya yığımına çevrilir. Həmin vəsaitin hansı faiz və şərtlərlə və neçə müddətə geri qaytarılması tərəflərin razılaşmasından asılıdır. Bir çox ölkələrdə bu rəqəm 12-15 il arasında müəyyənləşir. Bundan aşağı olan müddət çərçivəsi də var.

Özəl pensiya fondlarına toplanan vəsaitlər təyinatına görə, bəzi hallarda bank depozitlərinə bənzəyir. Çünki banklara da vətəndaş pul qoyur və dividend əldə edir. Ancaq fondun təminatlı vəsaitləri ilə bank dividendləri arasındakı fərq onun birbaşa sosial məzmunlu olmasıdır. Belə ki, fonda toplanan pullar aylıq və ya illik geri qaytarılmır, ödənilən vəsaitin məbləğinə görə, hər arataraq kapital yığımına çevrilir, bu vəsaitlər inflyasiya və s. amillərə görə, sığortalanaır. Eləcə də özəl fondlarda kapitalın qorunması riskləri idarə olunur, vətəndaşın pensiyasının gəlir artımı baxımından yaxşılaşmasını təşviq edir.



Hazırda Almaniya, Böyük Britaniya, İrlandiya, Türkiyə və s. ölkələrdə özəl təqaüd fondları fəaliyyət göstərir. Amerika və Asiyada da fərdi pensiya fondlarının fərqli modelləri mövcuddur. Ümumilikdə, dünyada 300-dən

### Dünyada 300-dən çox özəl pensiya fondu fəaliyyət göstərir

çox özəl pensiya fondu mövcuddur ki, onların toplam idarə olunan aktivləri təxminən 24 trilyon ABŞ dolları təşkil edir. Dünya ölkələrində tətbiq edilən fərdi pensiya modelləri ümumi olaraq bir mexanizmə əsaslanır, bu da vətəndaşların aylıq gəlirlərinin bir hissəsinin dividend xarakterli yığımlara yönəldilməsidir. Beynəlxalq təcrübəyə əsasən, özəl pensiya fondları vəsaitlərin saxlanması ilə bağlı yüksək faiz dərəcələri təklif edir. Yəni banklarda olduğu kimi onlar depozitlər və müxtəlif investisiya layihələri təqdim edərək pensiya alanların gəlirlərini artırmağa imkan yaradır. Belə ki, vətəndaşlar hər ay maaşlarından ödədiyi sosial sığorta haqqından əlavə, təxminən 1-2 faiz intervalında pullarını həmin fonda köçürürlər. Özəl fondlar həmin vəsaitləri investisiya məqsədilə yığır və müxtəlif iqtisadi sahələrə sərmayə, maliyyə investisiyası kimi yönəldir, dividendlər əldə edir. Həmin dividendlər illər üzrə yığılır və bankdakı əmanət hesabı kimi formalaşaraq təqaüdçülərə pensiya yaşında geri ödənilir. Müqavilə şərtlərinə uyğun, fonda pul qoyan şəxs pensiya yaşına çatmasa , həmin kapital dərhal onun varislərinə ötürülür. Varis o pulu birdəfəlik və ya hissə-hissə götürə bilir. Bu isə təqaüdçülərin daha yüksək pensiya almasına şərait yaradır.

Həmçinin özəl pensiya fondları vasitəsilə dövlət büdcəsinin yükünün azalması, həmçinin pensiya artımlarının indeksasiyasına əlavə müsbət təsirlərin olması mümkündür.

Ölkəmizdə özəl pensiya fondunun yaradılması vətəndaşların iki mənbədən - həm dövlət, həm də özəl fondlar vasitəsilə kapital yığımı təmin etməklə daha etibarlı və böyük pensiya vəsaiti almasına imkan yaradacaq. Eyni zamanda, qeyri-dövlət pensiya fondlarının yaranması pensiya sığorta sistemində rəqabəti formalaşdırmaqla yanaşı, DSMF-nin dövlət büdcəsinin transfertlərindən asılılığını da azalda bilər.

Özəl pensiya institutu kommersiya strukturudur və ona görə də bu fondun fəaliyyətə başlaması o demək deyil ki,

### Dövlətin sosial vergisindən qaçmaq olmaz

vətəndaşlar icbari sosial sığorta haqqından azad olunacaqlar, yəni Dövlət Sosial Müdafiə Fonduna aylıq 3 faiz həcmində vəsaiti ödəməyəcəklər. Çünki Dövlət Fondu fərdi uçot sisteminə uyğun olaraq hər bir vətəndaşın gələcək pensiya təminatı üçün öhdəliklərin məcburi ödəniş mənbəyidir. Ona görə də məcburi sosial sığorta haqqından heç kim imtina edə bilməz. Qeyri-dövlət pensiya fondlarının yığımları, yəni sosial sığorta haqları isə məcburi qaydada deyil.

Beləliklə, özəl pensiya fondlarının yaradılması ölkədə pensiya artımının dayanıqlılığını təmin edə, həmçinin pensiyaların indeksasiyasına müsbət təsir göstərə bilər.

**E.CƏFƏRLİ**

# Ukrayna ərazilərini geri qaytaracaq?

## Nyu-Yorkdan Moskvaya mesaj...

### Rusiya ilə NATO arasında hərbi qarşıdurma baş verə bilər

ABŞ Prezidenti Donald Tramp növbəti dəfə qlobal medianın ən önəmli gündəm mövzusuna çevrilib. Belə ki, BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyasında çıxışından sonra jurnalistlərin suallarını cavablandıran Ağ Evin rəhbəri Rusiya-Ukrayna münaqişəsində mövcud vəziyyət, o cümlədən Rusiyanın Polşa və Estoniyaya son təhdidləri ilə bağlı mühüm bəyanatlar səsləndirib. Əvvəlkilərdən fərqli olaraq, ABŞ Prezidenti budəfəki bəyanatlarında NATO və Ukraynaya dəstək nümayiş etdirib, Rusiyanı isə sərt tənqid edib. Vaşinqtonun NATO-dakı müttəfiqlərini qorumağa hazır olub-olmaması ilə bağlı səsləndirilən suallar xüsusi diqqət çəkib - Rusiyanın NATO müttəfiqlərinə hücum edəcəyi təqdirdə ABŞ-ın hansı addım atacağı ilə bağlı sualı cavablandıran Tramp belə bir halın yalnız vəziyyətdən asılı olduğunu, lakin Avropadakı müttəfiqlərin rus qırıcılarını onların hava məkanını pozarkən vurmaq hüququna malik olduqlarını qeyd edib. Eyni zamanda Tramp vurğulayıb ki, Ukraynadakı müharibə tezliklə bitməyəcək. "Rusiya döyüş meydanında o qədər də yaxşı görünmür. Bu, onlar üçün sürətli olmalıdır. Deyəsən, bu, uzun müddət bitməyəcək," - deyə ABŞ-ın dövlət rəhbəri əlavə edib ki, Ukrayna Silahlı Qüvvələri hərbi münaqişə zamanı Rusiyaya uğurla müqavimət göstərib; "Düzünü desəm, Ukrayna ordusu bu böyük rus ordusunun qarşısını almaq üçün kifayət qədər yaxşı işlər görüb və öz uğurlu nailiyyətlərini davam etdirir." Tramp, həmçinin Ukrayna xalqının qəhraman və mərd xalq olduğunu da diqqətə çatdırıb. "Ukrayna xalqı qəhrəman və şücaətli xalqdır. Onlar inanılmazı edib. Prezident Zelenski də bu qəhrəman xalqın qətiyyətli və cəsarətli lideridir".

Bununla yanaşı, ABŞ prezidenti öz "Truth Social" şəbəkə hesabında Rusiya-Ukrayna münaqişəsinin gedişatı ilə bağlı mühüm məqamlara da toxunub - o, qeyd edib ki, Ukrayna Aİ-nin dəstəyi ilə mübarizə aparmaq və bütün öz ərazilərini əvvəlki sərhədlərdə geri qaytarmaq imkanındadır. "Ukraynanın və Rusiyanın hərbi və iqtisadi vəziyyəti ilə tanış olduqdan və onu tam başa düşdükdən, həmçinin bunun Rusiyada yaratdığı iqtisadi çətinlikləri gördükdən sonra mən hesab edirəm ki, Ukrayna Avropa İttifaqının dəstəyi ilə mübarizə aparmaq və bütün öz ərazilərini əvvəlki sərhədlərdə geri qaytarmaq imkanındadır. Zaman, səbr və Avropanın, xüsusilə də NATO-nun maliyyə dəstəyi ilə müharibənin başladığı ilkin sərhədlərin bərpası tamamilə mümkündür. Niyə də olmasın? Rusiya artıq üç yarım ildir ki, mənasız bir müharibə aparır, halbuki real hərbi gücə malik dövlət bunu bir həftədən az müddətdə qazana bilərdi. Bu, Rusiyanın şərəfini artırmır. Əksinə, onu daha çox "kağız pələngi" rolunda göstərir", - deyə Tramp öz statusunda vurğulayıb ki, Moskvanın Ukraynada bütün cəhdləri boşa çıxıb: "Vəsaitlərin böyük hissəsi Ukraynaya qarşı mübarizəyə xərclənir, amma Ukrayna böyük ruh sahibidir və daha da güclənir - o zaman Ukrayna öz ölkəsini əvvəlki halına qaytara biləcək və kim bilir, bəlkə də daha irəli gedəcək. Ukraynanın hərəkətə keçməsi üçün vaxt yetişib. Biz NATO-ya silah təchiz etməyə davam edəcəyik ki, NATO da onları lazım bildiyi kimi istifadə etsin. Hamıya uğurlar". Göründüyü kimi, qlobal super güc dövlətin rəhbəri bu kimi bəyanatları və statusları ilə Rusiyaya açıq mesaj göndərib. Onun bu istiqamətdə hansı lazımi addımlar atacağına gəlincə, bunu yalnız zaman göstərəcək.

### Tramp tərəddüd içərisindədir

ABŞ Prezidentinin bəyanatı ilə bağlı bəzi politoloqlar düşünürlər ki, Tramp Rusiyaya qarşı hərəkətə keçməyə hazırdır, amma buna hələ tələsmir - Tramp Moskvaya qarşı daha sərt tədbirlərin görülməsi ilə bağlı məsələdə tərəddüd içərisindədir. O, hələ də bu barədə hansı mövqe tutacağını qərarlaşdırmayıb. Çünki Tramp bir tərəfdən Rusiya ilə münasibətləri normallaşdırmağa çalışır, digər tərəfdən isə Rusiyaya qarşı təzyiqlərin artırılması ilə bağlı açıqlamalar verir. ABŞ-ın hazırkı administrasiyasının Rusiya ilə diplomatik-siyasi münasibətləri normallaşdırmaq niyyətində əsas məqsədi Moskva ilə yüksək gəlir gətirəcək ticarət sazişləri imzalamaq və Rusiyanı Çinin təsirindən uzaqlaşdırmaqdır.



### Kreml NATO ilə hərbi münaqişəyə cəhd etməz

Ekspertlərin sözlərinə görə, Moskva Qərbə qarşı təzyiq metodundan istifadə edir. Kreml çox yaxşı bilir ki, ABŞ və Avropa İttifaqı Rusiyaya qarşı onun iqtisadiyyatına daha ağır zərbə vuracaq sanksiyalar qəbul etmək imkanlarını nəzərdən keçirir. Rusiyanın qırıcı təyyarələrinin və dronlarının NATO-nun üzv ölkələrinin hava məkanına daxil olması və orada dövr etməsi onu deməyə əsas verir ki, Kreml məqsədyönlü şəkildə NATO ilə münasibətləri daha da gərginləşdirir və alyansa hərbi münaqişənin mümkün olması ilə bağlı mesajlar ötürür. Moskva bu cür hərəkətləri ilə həm ABŞ-ı, həm də Aİ-ni Rusiyaya qarşı sanksiyalar tətbiq etməməyə vadar edir. Moskva NATO-nu qorxudur ki, Rusiyaya qarşı sərt sanksiyalar qəbul olunacağı təqdirdə Moskva Şərqi Avropa və Baltikyanı ölkələrin ərazilərinə raket və dron zərbələri endirəcək. Rusiyanın isə NATO ilə müharibə aparmaq imkanları yoxdur, əgər NATO ilə müharibə baş verəcəksə, bu, Rusiyanın məğlubiyyəti ilə nəticələnəcək. Kremldə bunu çox yaxşı başa düşürlər. Bu baxımdan Moskvanın NATO ilə hərbi münaqişəyə cəlb olunması inandırıcı deyil.

### Rusiyaya ciddi xəbərdarlıq

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov qəzetimizə şərhində bildirib ki, Tramp Moskvanın hərəkətlərindən təngə gəlib. "Trampın son bəyanatlarının məğzi ondan ibarətdir ki, o, Rusiyaya ciddi xəbərdarlıq edib. O, Moskvaya açıq şəkildə mesaj göndərir ki, NATO-ya üzv olan ölkələrin hava məkanını pozmasın və ərazi bütövlüyünə təhdid yaratmasın, NATO-ya qarşı təzyiq metodlarını bir kənara qoysun, yoxsa bunun sonu genişmiqyaslı hərbi qarşıdurmadır. Tramp administrasiyası başa düşür ki, əgər Vaşinqton Rusiyanın hərəkətlərinə cavab verməsə və NATO-dakı müttəfiqlərini yalnız buraxsa, ABŞ-ın həm Avropada, həm də dünyanın müxtəlif regionlarında nüfuzu sarsılacaq. O ki qaldı Rusiya ilə NATO arasında müharibənin baş verməsinə, bu, yalnız Trampın qərarından asılı deyil, bu məsələdə Pentaqonun və ABŞ-ın beyin institutlarının mövqeyi də nəzərə alınmalıdır. Əgər Rusiya ABŞ-ın xəbərdarlıqlarını nəzərə almasa, alyansdakı ölkələrin ərazi bütövlüyünə təhdid etməyi davam etdirərsə, Moskva Vaşinqtonun çox ciddi reaksiyası ilə üzləşəcək. Bu, hətta hərbi qarşıdurmaya da gətirib çıxara bilər".

*Yunis ABDULLAYEV*

# ABŞ Argentinada hərbi baza quracaq

ABŞ Argentinada hərbi baza qura bilər. Belə ki, Argentina hökuməti maliyyə yardımı müqabilində ölkənin cənubundakı bazada ABŞ hərbçilərinin yerləşməsinə icazə verməyə hazırdır. Argentinanın "TN" telekanalının məlumatına görə, Argentina hakimiyyəti ölkənin cənubunda yerləşən Uşuaya şəhərində inşa edilən bazanın Amerika hərbçiləri tərəfindən istifadəsini müzakirə edir. Bu səbəbdən ölkə prezidenti Xavyer Mileylə birlikdə Nyu-Yorka gedən Argentina nümayəndə heyətinə müdafiə naziri Luis Petri də daxil edilib. Telekanal bildirib ki, Amerika tərəfi Pekinin Cənubi Amerika ölkəsindəki təsirini azaltmaq üçün Buenos-Ayresdən Çinlə valyuta mübadiləsindən imtina etməsini istəyir. Qeyd edək ki, çərşənbə axşamı günü Miley Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində amerikalı həmkarı Donald Trampla görüşüb.

### Beunos Airesin ABŞ-ın strateji və maliyyə dəstəyinə ehtiyacı yaranıb

Məsələ ilə bağlı politoloq Tural İsmayılov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Argentina hökumətinin ABŞ-a öz ərazisində hərbi baza qurmaq təklifi sıradan bir addım deyil. Onun sözlərinə görə, bu, ilk növbədə Buenos Airesin maliyyə böhranından çıxış üçün lərinin gündəmə gəlməsi mümkündür. Buraya Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı vasitəsilə kreditlər də daxildir. Hərbi dəstək baxımından isə ABŞ Argentinaya texniki avadanlıq, modern silah sistemləri və kəşfiyyat imkanları təqdim edə bilər," - deyə T.İsmayı-



Vaşinqtonun dəstəyinə ehtiyacının artması ilə bağlıdır. "ABŞ hərbi bazası demək, birbaşa təhlükəsizlik zəmanəti və siyasi himayə deməkdir. Argentina iqtisadiyyatı uzun müddətdir ki, dollar asılılığında çətinlik çəkir və beynəlxalq kreditlərə çıxış üçün ABŞ dəstəyini vacib görür. Belə bir baza qarşılığında ABŞ-dan ciddi maliyyə yardım paketlov vurğulayıb ki, Argentinanın ABŞ-ın strateji dəstəyinə ehtiyacı var; "Bununla yanaşı, ABŞ Latın Amerikasında strateji mövqeyini gücləndirmək üçün yeni dayaq nöqtəsi qazanmış olacaq. Argentina bu addımla həm də regionda Braziliya və Meksika kimi aparıcı oyunçular qarşısında öz çəkisini artırmaq istəyir".

### ABŞ-ın Latın Amerikası strategiyasında Çin amili

Ekspert hesab edir ki, ABŞ-ın Latın Amerikası strategiyasında əsas motivi Çindir. "Son illərdə Çin Latın Amerikasında iqtisadi sərmayələr, infrastruktur layihələri və kredit siyasəti ilə nüfuzunu artırıb. Xüsusilə enerji və mədən sektorunda Çin kapitalı böyük paya sahibdir. ABŞ isə bunu öz təsir dairəsinə birbaşa təhlükə hesab edir. Argentina ilə hərbi baza razılaşması Çinin bölgədə iqtisadi ekspansiyasına qarşı siyasi balans yaratmaq məqsədi daşıyır. Vaşinqton Pekinin hegemon mövqeyinin yaranmasına imkan vermək istəmir. Bu, Latın Amerikada yeni soyuq müharibə elementlərinin formalaşmasına səbəb ola bilər," - deyə T.İsmayılov vurğulayıb. Ekspert əlavə edib ki, Argentina ABŞ ilə münasibətləri möhkəmləndirməkdə bir sıra məqsədlər güdür. "Argentina üçün isə ABŞ-a yaxınlaşmaq həm maliyyə nəfəsi, həm də siyasi təhlükəsizlik qarantiyası deməkdir. Beləliklə, bu təşəbbüs həm ikitərəfli maraqlara, həm də qlobal güclər arasında geosiyasi rəqabətə xidmət edir. Nəticədə Argentina-ABŞ hərbi əməkdaşlığı bölgədə yeni güc balansı yarada bilər".

*Yunis ABDULLAYEV*




# ABŞ-da süni intellekt üzrə beş yeni data mərkəzi yaradılıb

Texnologiya nəhəngləri - "OpenAI", "Oracle" və "SoftBank" ABŞ-da infrastruktur platforması olan "Stargate"in bazasında beş yeni süni intellekt (AI) data mərkəzi yaradıblar. Bu barədə həmin şirkətlərin rəhbərləri məlumat veriblər.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, yeni mərkəzlər ABŞ-ın Texas ştatındakı Abilene şəhərində yerləşən əsas kampus və "CoreWeave" ilə davam edən layihələrlə birlikdə "Stargate"in planlaşdırılan gücünü təxminən 7 giqavata çatdıracaq və ümumi sərmayə üç il ərzində 400 milyard dolları ötəcək.

Açıqlamaya görə, bu, şirkətlərin 2025-ci ilin sonuna qədər 10 giqavatlıq hədəfə çatmaq üçün atdığı mühüm addımdır.

İyul ayında "OpenAI" və "Oracle" 4,5 giqavata qədər əlavə "Stargate" tutumunun yaradılması barədə razılığa gəliblər. Bu tərəfdaşlığın beş il ərzində 300 milyard dollardan çox sərmayə cəlb edəcəyi gözlənilir.

Yeni mərkəzlərdən üçü Texasın Şakelford qraflığında, Nyu-Meksikodakı Dona Ana qraflığında və tezliklə elan ediləcək Midvest məkanında yerləşir. Abilin sahəsinin yaxınlığında 600 meqavat da əlavə oluna bilər.

Bu layihələrin ölkə daxilində 25 mindən çox iş yeri yaradacağı bildirilir. Texnologiya nəhəngləri qeyd edirlər ki, daha çox iş yerinin açılması da mümkündür.

"SoftBank" və "OpenAI" tərəfindən hazırlanmış digər iki data mərkəzinin 18 ay ərzində 1,5 giqavata çatacağı gözlənilir. Onlardan biri Ohayo ştatının Lordstaun şəhərindədir və burada gələn il istifadəyə verilməsi gözlənilən qabaqcıl data mərkəzinin tikintisinə başlanılıb. İkincisi Texasın Milam qraflığında yerləşir və sürətli yerləşdirmə obyekti üçün infrastrukturu təmin edən "SoftBank Group"un törəmə şirkəti olan "SB Energy" tərəfindən qurulacaq.

Bu mərkəzlərin yaradılması AI-nin inkişafını sürətləndirmək, onun genişlənmə qabiliyyətini artırmaq və xərcləri azaltmaq məqsədi daşıyır. Yeni mərkəzlər, həmçinin 500 milyard dollarlıq investisiya hədəfinin aşıldığı üçün ABŞ-da daha çox şəbəkənin olacağı gözlənilən planların birinci mərhələsidir.

"Oracle" tərəfindən hazırlanmış yeni "Stargate" şəbəkələri artıq bu şirkətin bulud infrastrukturunda aktiv olan Abilene kampusuna qoşulacaq.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Azad sahibkarlıq və KOB-lar...

## İqtisadi inkişafın əsas faktorlarından biri

Müasir dövrdə iqtisadi inkişafın ən mühüm amillərindən biri azad sahibkarlığın və liberal iqtisadiyyatın mövcudluğudur. Hər iki anlayış iqtisadiyyatın təməlini təşkil edir və ölkələrin rifah səviyyəsini yüksəltməkdə əsas rol oynayır. Azad sahibkarlıq iqtisadi fəaliyyətin sərbəst aparılması və bazar iqtisadiyyatının prinsipial şəkildə təşviq edilməsidir. Liberal iqtisadiyyat isə bu prinsipləri dövlət səviyyəsində dəstəkləyən və bazar mexanizmlərinin sərbəst işləməsinə şərait yaradan sistemdir.

Azad sahibkarlıq iqtisadiyyatın dinamikliyini artırır, yeni iş yerlərinin yaranmasına səbəb olur və insanların iqtisadi azadlığını təmin edir. Sahibkarlar öz biznes ideyalarını həyata keçirərək həm özlərini, həm də cəmiyyətin rifahını artırırlar. Liberal iqtisadiyyat isə bazar iqtisadiyyatının səmərəliliyini təmin edən qanunvericilik və iqtisadi siyasəti formalaşdırır.

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

### Azad sahibkarlığın təməl daşı

Məlumdur ki, Kiçik və Orta Bizneslər (KOB-lar) iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərir. KOB-lar iqtisadiyyatda elastiklik və çeviklik təmin edir, daha sürətli qərar qəbul edir və dəyişən bazar şərtlərinə adaptasiya oluna bilir. Azad sahibkarlıq da KOB-ların inkişafının əsas təməllərindən biri sayılır. Bir sözlə, KOB-lar müxtəlif sahələrdə fəaliyyət göstərərək iqtisadiyyatın balanslaşdırılmış və davamlı inkişafına kömək edir. Azad sahibkarlıq mühiti KOB-lara innovativ məhsullar və xidmətlər təklif etməyə, həmçinin bazarda rəqabət aparmağa şərait yaradır.

Eyni zamanda, KOB-lar şəhər və kənd yerlərində iqtisadi aktivliyin artmasına səbəb olur, bölgələrdə sosial-iqtisadi inkişafı dəstəkləyir. Bu baxımdan KOB-lar azad sahibkarlığın təməl daşıdır və iqtisadiyyatın dinamikliyini, innovasiyasını və sosial sabitliyini təmin edən vacib amildir.

### KOB-ların rəqəmsal və “yaşıl keçid”inə dəstək artırılır

Bu günlərdə 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib. Forumda çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, gündəlikdə iki əsas istiqamət mühüm yer tutur. Bunlar KOB-ların rəqəmsallaşması və yaşıl keçididir.

Onun sözlərinə görə, rəqəmsallaşma və “yaşıl keçid” istiqamətləri KOB-ların davamlı inkişafına xidmət edir: “Bu istiqamətlər sahibkarların daha dayanıqlı iş yerləri yaratmasına və iqtisadi dəyişikliklərə hazır olmasına imkan verəcək. KOBİA COP29 çərçivəsində KOB-lar üçün qlobal iqlim hərəkatının yaradılması təşəbbüsü ilə çıxış edib və “KOB-ların yaşıl keçid üçün Bakı İqlim Koalisiyası haqqında Birgə Bəyannamə”yə start verib. Artıq 20-dən çox yerli və xarici təşkilat bəyannaməni dəstəkləyir. Qoşulma prosesi açıqdır və təbliğat işləri davam etdirilir”.

### KOB-lara yönəlmiş dəstək mexanizmləri

KOB-larla bağlı 3 vacib məsələyə xüsusi diqqət yetirilməsinin vacib olduğunu qeyd edən O.Məmmədov bunların - KOB-ların ehtiyaclarının daim nəzərdən keçirilməsi, bu ehtiyaclar əsasında xüsusi dəstək alətləri və xidmətlərin yaradılması və həmin mexanizmlərə, xidmətlərə əlçatanlıq təmin edilməsi olduğunu bildirib: “KOBİA KOB-larla ünsiyyət qurmaq üçün effektiv və müxtəlif kommunikasiya kanalları yaradıb. Mütəmadi olaraq sektorlar üzrə görüşlər təşkil edir, sorğular keçirir və KOB-ların müraciətlərini təhlil edirik. Dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində tematik məsləhətləşmələr də təşkil olunur. Sözügedən kommunikasiya kanalları vasitəsilə əldə etdiyimiz məlumatlar əsasında xüsusilə KOB-lara yönəlmiş müxtəlif dəstək mexanizmləri hazırladıq - daxili bazar araşdırması, ticarət mərkəzlərinə çıxış, qrant proqramı, “Startap” şəhadətnaməsi, KOB klaster mexanizmi, daxili və xarici sərgilərdə iştiraka dəstək və s”.

O.Məmmədov onu da əlavə edib ki, KOB-ların potensialının artırılmasına xüsusi diqqət yetirilir: “Bu məqsədlə KOB inkişaf mərkəzləri və KOB Model Müəssisə yaradılıb. Bu mexanizmlər gələcək iqtisadi tendensiyalara daha uyğun xidmətlər göstərməkdədir. Bizneslərin dövlətin dəstək alətlərinə, eləcə də “G2B” və “B2B” xidmətlərinə çıxışını asanlaşdırmaq üçün bir pəncərə xidmət modeli - KOB evləri fəaliyyət göstərir. Yeri gəlmişkən, ötən il Azərbaycanın “KOB evi” modeli beynəlxalq səviyyədə tanınaraq, innovativ təcrübə kimi qiymətləndirilib”.

*Yeganə*

# Səhiyyənin görünməyən qəhrəmanları...

**Əczaçıların peşə bayramıdır**

Bu gün dərman qutuları ilə birlikdə ümid paylayan, hər sualımıza səbirlə cavab verən əczaçıların bayramıdır. Əczaçılıq sadəcə bir peşə deyil, elm və insan sevgisinin vəhdətidir. Onlar səhiyyənin görünməyən qəhrəmanlarıdır: pandemiyada da, gecə növbəsində də, hər çağırışda da işləyən səssiz fədakarlardır...

Əczaçı olmaq sadəcə bir dərmanı şkafdan çıxarıb alıcıya təqdim etmək deyil. Bu, uzun illər təhsil, diqqət, dəqiqlik və məsuliyyət tələb edən bir peşədir. Belə ki, əczaçı hər bir dərmanın tərkibini, dozasını, təsirini, əks göstərişlərini və digər dərmanlarla qarşılıqlı təsirini bilməlidir. Yanlış məlumat, səhv doza - bütün bunlar insan həyatına ciddi təhlükə yarada bilər. Bu səbəbdən əczaçı savadlı, soyuqqanlı və diqqətli olmalıdır.

### Onlar həmişə ayaqda idi...

Pandemiyada maskanın arxasında nəfəs almaqda çətinlik çəkən, qapılar bağlananda belə aptekləri açıq saxlayan onlar idi. Hər sual verən, hər qorxmuş xəstəyə “narahat olmayın, burdayıq” deyən də onlar idi. Bəzən əczaçıların təbəssümü antibiotikdən də güclü təsir edir. Onların diqqəti xəstənin gözündə həyat qədər qiymətlidir.

Əczaçılar bəzən gecəni gündüzə qatır, bəzən bir dərmanın tərkibindəki dəyişiklik həyat qurtarır. Bu baxımdan onların işi səhvsiz olmalıdır, çünki adi bir səhv insan taleyinə yazıla bilər.

Bu gün, səhiyyənin digər sahələri qədər əczaçılığın da inkişafına, bu peşə sahiblərinin cəmiyyət tərəfindən tanınmasına və qiymətləndirilməsinə ehtiyac var. Əczaçılar bəzən tibb işçiləri arasında ən az yad olunanlardır. Amma unutmayaq ki, bir reseptin düzgün yerinə yetirilməsi, bir dərmanın vaxtında verilməsi, dozaların düz təyin olunması həyat və ölüm arasındakı xətt ola bilər. Bu xətti qoruyanlar da məhz əczaçılardır.



2009-cu ilin 25 sentyabr tarixində Beynəlxalq Əczaçılıq Federasiyası tərəfindən İstanbulda keçirilən Konqresdə Beynəlxalq Əczaçı Günü təsis edilib. Bu günün qeyd edilməsi səhiyyə sistemində əczaçıla-

### Çox zaman dəyəri görünməyən peşə

rın əhəmiyyətini bilmək üçün yaxşı bir fürsətdir və maarifləndirici istiqamətdir.

Əczaçıya hər bir evdə, hər bir ailədə ehtiyac var. Onların əməyini görmək və dəyərləndirmək hər birimizin borcudur. Çünki təhlükəsiz dərman istifadəsinin təminatçısı məhz əczaçılardır. Fürsətdən istifadə edib səbirlə bizə xidmət edən, gecə növbəsində belə bizi qarşılayan, yorğun, amma gülümsəməyi unutmayan əczaçıları peşə bayramı münasibətilə təbrik edirik.

*Yeganə BAYRAMOVA*

# Azercellin “DataMinds Bootcamp” proqramı uğurla yekunlaşdı

*Yüksək nəticə göstərən 11 iştirakçı Azercelldə işə qəbul və təcrübə imkanı əldə edib*

Azercellin “Amazon Web Services”in (AWS) texnoloji dəstəyi ilə həyata keçirdiyi “DataMinds Bootcamp” proqramı uğurla başa çatıb. Yeddi həftə davam edən intensiv tədris marafonu çərçivəsində 31 tələbə data və süni intellekt sahələrində praktiki bilik və bacarıqlar qazanaraq məzun olub.

Proqram məlumatların toplanması və təhlili, böyük həcmli datanın idarə edilməsi, süni intellektin tətbiqi sahələrini əhatə edib. Azercellin Data və Süni İntellekt üzrə ekspertlərinin təlimlərində tələbələr DataOps, MLOps və Generativ AI üzrə interaktiv məşğələlərdə iştirak edib, əldə etdikləri bilikləri real layihələrdə tətbiq ediblər. Final mərhələsində keçirilən müsahibə hazırlığı və peşəkar inkişaf bloku isə onların komanda işi, problem həll etmə və layihə idarəetmə bacarıqlarını daha da gücləndirib.

Məzunları təbrik edən Azercellin Data Analitikası və Süni İntellekt departamentinin direktoru Sabir Mərdanov və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) Rəqəmsal Transformasiya departamentinin direktoru Orxan Quliyev datanın idarəetmə və qərarvermədə artan rolunu vurğulayaraq proqramın rəqəmsal ixtisaslaşmaya və kadr potensialının güclənməsinə verdiyi töhfəni qeyd ediblər.

Tədbirdə məzunların proqram müddətində qazandıqları nailiyyətlər qeyd olunub, onlara rəsmi sertifikatlar təqdim edilib.




Proqramı fərqlənmə ilə tamamlayan 11 tələbə Azercelldə işə qəbul və təcrübə imkanı qazanıb. Onların sırasında Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, Nyu-York Universiteti, ADA Universiteti, Fransız-Azərbaycan Universiteti (UFAZ) və Bakı Ali Neft Məktəbində təhsil alan gənclər yer alır.

Azercell “DataMinds Bootcamp” kimi təşəbbüslərlə Azərbaycanda təhsil, innovasiya və rəqəmsal inkişaf ekosistemini dəstəkləməyə davam edir. Şirkət gənc istedadların müasir texnologiyalar üzrə bacarıqlar qazanmasına şərait yaratmaqla ölkənin rəqəmsal transformasiya prosesinə, innovasiya mühitinin gücləndirilməsinə və peşəkar kadrların yetişdirilməsinə mühüm töhfə verir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5042**
**Sifariş: 1979**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova